**Ərizə və şikayətlər diqqətlə araşdırılır**

2012-ci ilin iyul ayında dövlət vergi orqanlarına 3955 müraciət daxil olmuşdur ki, bu da ötən ilin iyul ayı ilə müqayisədə 256 müraciət və ya 6,4% azdır. Daxil olmuş müraciətlərdən 3870-i (98%) ərizə, 79-u (2%) şikayət, 6-sı (0,1%) təklif olmuşdur. Müraciətlərin 48,2%-i arayış alınması, 14,5%-i kameral vergi yoxlamaları, 13%-i vergi borcları, 1,5%-i vergi orqanlarının vəzifəli şəxslərinin hərəkəti (hərəkətsizliyi), 0,5%-i korrupsiya hüquqpozmaları, 11,3%-i digər məsələlərlə bağlıdır.

Hesabat dövründə vergi orqanlarına daxil olan şikayətlərin ümumi sayı ötən ilin iyul ayına nisbətən 8 ədəd və ya 11,2% artmışdır. Daxil olmuş şikayətlərin 24-ü eyni, 9-u təkrardır, yəni faktiki olaraq, şikayətlər cəmi 46 məsələ barədədir. Şikayətlərin faktiki sayından 50%-i operativ nəzarət, 17,4%-i bəyannamə, 15,2%-i audit, 17,4%-i digər sahələr üzrədir.

Müraciətlərin ümumi sayından 66%-i müsbət həll olunmuş, 7,4%-i barədə müvafiq izahat verilmiş, 3%-i əsassız sayılmış, 0,7%-i aidiyyəti üzrə göndərilmiş, 0,5%-i qismən həll olunmuş, 22,4%-i icradadır. Hesabat dövründə nazirliyin aparatına 339 müraciət: o cümlədən 272 ərizə, 66 şikayət daxil olmuş, 22 müraciətin icrası xüsusi nəzarətə götürülmüşdür. Şikayətlərin 21-i eyni, 8-i təkrardır, yəni faktiki olaraq, şikayətlər cəmi 37 məsələ ilə bağlıdır. Ötən ilin iyul ayı ilə müqayisədə nazirliyin aparatına daxil olan müraciətlərin ümumi sayı 46 ədəd (12%) azalmış, şikayətlərin faktiki sayı isə 6 ədəd (19,3%) artmışdır.

Azərbaycan Respublikası Prezidentinin Administrasiyasından nazirliyin aparatına 34 müraciət, o cümlədən 22 ərizə, 12 şikayət daxil olmuşdur. Ötən ilin iyul ayı ilə müqayisədə bu müraciətlərin ümumi sayı 1 ədəd, ərizələrin sayı 2 ədəd artmış, şikayətlərin sayı isə 1 ədəd azalmışdır.

Hesabat dövründə vergi orqanlarına daxil olmuş müraciətlərə qanunla müəyyən olunmuş müddətlərdə baxılması təmin edilmiş, cəmi 1 müraciət gecikmə ilə icra olunmuşdur.